**Xocalı faciəsi rep şəklində dünyaya tanıdılacaq**

**Layihənin təşəbbüskarı Leyla xanım Əliyevadır**

Dünən Trend İnformasiya Agentiliyində "Xocalıya Ədalət" kampaniyasının təşkilatçılığı ilə mətbuat konfransı keçirilmişdir. Mətbuat konfransının keçirilməsində məqsəd İslam Konfransı Təşkilatının Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş koordinatoru xanım Leyla Əliyevanın təşəbbüsü ilə hazırlanmaqda olan "Xocalıya Ədalət" (Justice for Khojaly) rep mahnısının təqdimatı idi. Qeyd edək ki, "Xocalıya Ədalət" kampaniyası məhz Leyla xanım Əliyeva tərəfindən elan olunmuşdur.

Mətbuat konfransını giriş sözü ilə açan İslam Konfransı Təşkilatının Gənclər Forumunun baş katibi Elşad İskəndərov tədbirin keçirilmə məqsədini açıqladı. O bildirdi ki, "Xocalıya Ədalət" rep mahnısının keçirilməsi ötən ilin noyabrında təşkilatın koordinatorlarının toplantısında qərara alınmışdır. Yaradıcı üslubla Xocalı faciəsini çatdırmaq məqsədi güdən bu layihə həm yerli həm də xarici musiqiçilər tərəfindən hazırlanmışdır. E.İskəndərov bildirdi ki, bu rep mahnısının bu yaxınlarda klipinin təqdimatı olacaq. Klipin çəkilişləri barədə danışan baş katib bu çəkilişlərin Bakıda - Şəhidlər Xiyabanında, qaçqın düşərgəsində və Xocalı soyqırımı qurbanlarının ailəsində getdiyini bildirdi. Rep bütün dünyada populyar bir üslub olduğundan, bu üslub seçilmişdir. Bütün dünyada sosial mövzuların məhz rep vasitəsilə oxunduğunu qeyd edən E.İskəndərov Xocalı faciəsinin də bu yolla dünyaya çatdırılmasının daha məqsədəuyğun olduğunu hesab etdiyini bildirdi. Baş katib bu ilin 26 fevral tarixində kampaniyanın bir il ərzində fəaliyyəti ilə bərabər dünyanın 30-a yaxın paytaxt şəhərində Xocalı qətliamının mənəvi-siyasi tanınmasına yönəlmiş aksiyaların keçirilməsi nəzərdə tutulur. Tdəbirlər zamanı kampaniyanın təşəbbüsü ilə hazırlanacaq "Xocalıya Ədalət" rep üslublu mahnının da təqdimatı keçiriləcək.

Mətbuat konfransı zamanı mahnının müəllifi olan ABŞ-ın sosial mövzularda yaradıcılığı ilə tanınmış rep ifaçısı Toni Bləkmən və məşhur Amerika aranjimançısı Qordan Vilyams da jurnalistlərə təqdim edildi. Qeyd edək ki, bu insanlar layihənin gerçəkləşməsində böyük əməyi olan insanlardır.

"Xocalıya Ədalət" rep mahnısının aranjimançısı tanınmış səs rejissoru, 3 dəfə "Qremmi" mükafatı laureatı Qordon Vilyamsdır. Mahnının sözlərinin müəllifi və ifaçısı isə Toni Bləkməndir. Onunla yanaşı, Azərbaycanın rep qruppu "Dəyirman" da mahnını ifa edəcək. Toni Bləkmənin bildirdiyinə görə o, keçən il noyabr ayında Bakıda kampaniyanın milli koordinatorlarının görüşündə iştirak etmiş və Azərbaycan xalqına qarşı törədilmiş bu misilsiz ədalətsizlik haqda məlumatlarla tanış olmuşdur. Bundan sonra o, Xocalı qətliamı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında fəaliyyət göstərməyə qərar vermişdir. Görüş zamanı kampaniyanın təşəbbüskarı Leyla xanım Əliyeva ifaçını Azərbaycana bir daha səfər etməyə və milli ifaçılarla birlikdə "Xocalıya Ədalət" kampaniyasına yaradıcı üslubda dəstək verməyə dəvət etmişdir. Leyla Əliyevanın dəvətini məmnuniyyətlə qəbul edən ifaçı, tanınmış Amerika aranjimançısı Qordon Vilyamsla birlikdə Bakıya səfər edərək, kampaniya ilə bağlı özünün bəstələdiyi mahnını təqdim etmişdir.

Tədbirdə çıxış edən Toni Bləkmən bu mahnını oxuyana qədər Xocalı barədə məlumatının olmadığını, ona belə bir layihə təklif olunanda isə çox maraqlı gəldiyini bildirdi. Xocalı faciəsi haqda eşidəndə isə, şok yaşadığını qeyd etdi. Dünyanın bir çox yerlərində olan ifaçı belə bir ədalətsizliyin şahidi olmadığını bildirdi. Noyabrda Bakıda olarkən isə "Xocalıya Ədalət" kampaniyası ilə yaxından tanış olub. O, Xocalı həqiqətlərinin musiqi vasitəsilə dünyaya çatdırılmasına və lazımi mesajların veriləcəyinə inandığını gizlətmədi.

Aranjimançı Qordon Vilyams isə Xocalı barədə yalnız eşitdiyini, lakin bu barədə dərin biliyə malik olmadığını boynuna aldı. 25 ilə yaxındır replə məşğul olan aranjimançı Xocalının dünyaya tanıdılmasında repin böyük əhəmiyyətə malik olacağını qeyd etdi. Bu işdə öz köməyini əsirgəməyəcəyini də bildirən Qordon Vilyams bu hadisənin ona çox pis təsir etdiyini nəzərə çatdırdı.

Tədbirdə iştirak edən azərbaycanlı reper, “Dəyirman” qrupunun üzvü Miri Yusif də layihədə iştirakdan məmnunluq duyduğunu və belə layihələrdə iştirak etməyin vətəndaşlıq borcu olduğunu bildirdi.

Mahnı Xocalı qətliamı haqda həqiqətləri özündə əks etldirməklə dünya ictimaiyyətini bu faciəyə qiymət və Azərbaycanın haqq səsinə dəstək verməyə çağırır. Mahnının mətnində məşhur Amerika insan haqları müdafiəçisi doktor Martin Lüter Kinqin ədalətsizliyə qarşı mübarizə aparmaq çağırışından istifadə edilmişdir. Mahnıda müasir rep ritmləri ilə yanaşı, milli musiqimizin elementləri - muğam və balaban musiqisindən istifadə edilib.

Tədbirin sonunda “Xocalıya Ədalət” kampaniyası çərçivəsində ABŞ prezidenti və Konqresinə ünvanlanmış və Xocalı faciəsini insanlığa qarşı cinayət kimi tanınmasını tələb edən petisiyaya xarici qonaqlar - Qordon Vilyams və Toni Bləkmən imza atdılar.

**Murad İSMAYILZADƏ**

**Səs.- 2010.- 19 yanvar.- S. 6.**